2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Ramiz İbrahimovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 4 yanvar 2025-ci il tarixli 1 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 6 yanvar 2025-ci il

Mən, ekspert qrupunun üzvü Ramiz İbrahimov 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində 70 saylı Neftçala seçki dairəsindən Xol Qarabucaq bələdiyyəsinə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Qəfərov Qismət Tahir oğlunun namizəd kimi qeydə alınmasından imtinaya dair 70 saylı Neftçala seçki dairəsi dairə seçki komissiyasının (bundan sonra - dairə seçki komissiyası) 2 yanvar 2025-ci il tarixli 2/5 saylı qərarından verdiyi 4 yanvar 2025-ci il tarixli 01 saylı teleqram müraciətini araşdıraraq **m ü ə y y ə n e t d i m**:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrində və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”da nəzərdə tutulan müddətdə və qaydada verildiyindən icraata qəbul edilmiş və araşdırma aparılmışdır.

Araşdırma ilə bağlı şikayətçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmişdir. Araşdırmada və iclasda iştirak etməkdən imtina etmişdir.

Q.T.Qəfərov müraciətini onunla əsaslandırmışdır ki, dairə seçki komissiyası etibarnamə əsasında oğluna verdiyi minik avtomobilinin əmlak barəsində məlumatda və əmək haqqı almadığı halda 7800 manat məbləğində gəlirin namizədin gəlirlərinin miqdarı və mənbəyi haqqında məlumatda göstərilmədiyinə görə əsassız olaraq Seçki Məcəlləsinin 58.1.4-cü və 58.1.5-ci maddələrini tətbiq etməklə onun namizədliyinin qeydə alınmasından imtina etmişdir. Ona görə də həmin qərarın ləğv edilməsini və namizədliyinin qeydə alınmasını xahiş etmişdir.

Dairə seçki komissiyası Xol Qarabucaq bələdiyyəsinə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Q.T.Qəfərovun namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə 2 yanvar 2025-ci il tarixli 2/5 saylı qərarını onunla əsaslandırmışdır ki, namizədin təqdim etdiyi gəlirlərinin miqdarı və mənbəyi haqqında məlumatda bir illik dövr ərzində gəlirlərinin olmadığını göstərmiş, ancaq işçi qrupunun araşdırılması zamanı onun həmin dövrdə 7800 manat gəlirlərinin olduğu aşkar edilmişdir. Həmçinin əmlak barəsində təqdim etdiyi məlumatda mülkiyyətində olan 0,12 ha torpaq sahəsini və mülkiyyətçisi olduğu “Toyota Prius” markalı minik avtomobilini göstərməmişdir.

Araşdırma ilə əlaqədar seçki sənədləri dairə seçki komissiyasından tələb edilərək seçki sənədlərindəki məlumatların təkrar araşdırılması üçün Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış işçi qrupuna təqdim edilmişdir.

Araşdırmanın nəticəsi olaraq işçi qrupunun üzvləri tərəfindən verilmiş 5 yanvar 2025-ci il tarixli rəy və rəyə əlavə edilmiş mülkiyyət hüququna dair təsdiqedici sənədlərlə namizəd Q.T.Qəfərovun mülkiyyətində Neftçala rayonu Xol Qarabucaq kəndində yerləşən 0,12 ha həyətyanı torpaq sahəsinin və ümumi birgə mülkiyyət hüququ ilə həmin kənddə 0,12 ha torpaq sahəsində yerləşən (4 otaq) fərdi yaşayış evinin mövcud olması təsdiqini tapmışdır. Həmçinin namizədin mülkiyyətində bir ədəd Toyota Prius markalı minik avtomobilinin olduğu, ancaq həmin əmlakların namizəd tərəfindən təqdim edilmiş əmlak haqqında məlumatda göstərilmədiyi müəyyən edilmişdir.

Bundan başqa işçi qrupunun araşdırması ilə bələdiyyə üzvlüyünə namizəd Q.T.Qəfərovun gəlirləri barəsində təqdim etdiyi məlumatda göstərmədiyi, lakin muzdlu

işdən 2023-cü ilin dekabr ayı üzrə 650 manat, 2024-cü ilin yanvar-sentyabr ayları üzrə 5850 manat olmaqla ümumilikdə 6500 manat məbləğində gəlirlərinin olduğu aşkar edilmişdir.

Araşdırma ilə müraciətdə iddia edilən digər hallar öz təsdiqini tapmamışdır.

Seçki Məcəlləsinin 60.2.3-cü maddəsinə əsasən namizədlərin, siyasi partiyanın, siyasi partiya bloklarının bu Məcəllənin 57-ci və 58-ci maddələrinə uyğun təqdim etdikləri məlumatların düzgün olmaması namizədin qeydə alınmasından imtina üçün əsasdır.

Seçki Məcəlləsinin 216.1-ci maddəsinə görə bələdiyyə üzvlüyünə namizədlər bu Məcəllənin 60-cı maddəsində göstərilən qaydada qeydə alınırlar.

Göstərilənlərə əsasən müəyyən edilir ki, dairə seçki komissiyası tərəfindən Q.T.Qəfərovun Xol Qarabucaq bələdiyyəsinə namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə dairə seçki komissiyasının qərarı əsaslı olmuşdur. Ona görə də şikayətin təmin edilməsi üçün hüquqi əsaslar mövcud deyildir.

Araşdırmanın nəticəsi olaraq namizəd tərəfindən namizədliyinin qeydə alınması üçün təqdim olunmuş seçki sənədlərində əmlak və gəlirləri barədə məlumatların göstərilməməsi təsdiqini tapdığından müraciət əsassız hesab edilərək təmin edilməməli, Q.T.Qəfərovun namizəd kimi qeydə alınmasından imtinaya dair 70 saylı Neftçala seçki dairəsi dairə seçki komissiyasının 2 yanvar 2025-ci il tarixli 2/5 saylı qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənlərə və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 58-ci, 59-cu, 60-cı, 112-ci, 112-1-ci və 216-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **r ə y ə g ə l d i m:**

1. 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Xol Qarabucaq bələdiyyəsinə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Qəfərov Qismət Tahir oğlunun 4 yanvar 2025-ci il tarixli 01 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, 70 saylı Neftçala seçki dairəsi dairə seçki komissiyasının 2 yanvar 2025-ci il tarixli 2/5 saylı qərarı dəyişdirilmədən saxlanılsın.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Ramiz İbrahimov